# METODİKA

## ORTA TƏHSİLİN VƏZİFƏSİ

**S.Ə.AĞAYEV**

Hər bir xalqın, dövlətin iqtisadi inkişafı, elmi-texniki tərəqqisi və mədəni-mənəvi həyat səviyyəsi birinci növbədə onun təhsil sisteminin təşkilindən asılıdır. Bu sistemin onurğa sütununu isə orta təhsil sistemi təşkil edir.

Onurğa sütununun iliyini, təhsil prosesinin canını isə müəllim-şagird münasibətləri təşkil edir. Müəllim yüksək elmi və metodik hazırlığa, geniş dünyagörüşünə, dərin və çevik təfəkkürə, kamil, saf mənəviyyata malik olmalıdır ki, şagirdlərdə tənqidi təfəkkür, sərbəst düşüncə qabiliyyəti formalaşdıra bilsin. Doğrusu, bizim bütün sahələrdə, xüsusilə təhsil sahəsində belə kadrlara böyük ehtiyacımız var. Amma bizim birinci növbədə və daha çox ehtiyacımız müəllim-şagird münasibətlərinin sırf mənəvi əsaslar üzərində qurulmasıyla, bu münasibətlərin dünya təhsil sistemindəki münasibətlər səviyyəsinə qaldırılmasıyla bağlıdır. Biz buna nail olmasaq, təhsil islahatının həqiqi uğurlarından, nailiyyətlərindən danıça bilmərik.

Təlim və tərbiyə vahid prosesin iki tərəfi olduğundan və bu tərəflərin bir-birini tamamladığından, tərəflərdən birinin səhvi, qüsuru bütövlükdə prosesin nöqsanı, çatışmazlığı deməkdir. Bu isə məktəbin qarşısında duran başlıca vəzifənin - vətəndaş tərbiyəsi vəzifəsinin öhdəsindən gələ bilməməsi deməkdir.

Əsl, layiqli vətəndaş yetişdirməkdə təhsildən çox tərbiyənin əhəmiyyəti böyük olmasaydı, görkəmli tarixi şəxsiyyətlər tərbiyəyə önəmli yer verməzdilər. Belə ki, nə Belyavski tərbiyəni təhsilin yüksək məqamı adlandırardı, nə də Sent–Ekzüperi «insanı tərbiyə yaradır» deyərdi.

İndi hamı orta ümumtəhsil məktəblərindən şikayətlənir: müəllimlər şagirdlərdən, valideynlər və şagirdlər də müəllimlərdən. Hamı da müəyyən dərəcədə haqlıdır. Lakin heç kim öz səhvini, nöqsanını görmək istəmir. Bu ən çox və birinci növbədə müəllimlərə aiddir. Axı, nə üçün müəllimin dərs dediyi şagird özünə repetitor axtarmalıdır, yaxud valideyn uşağı məktəbdə oxuya-oxuya imkanı oldu-olmadı, ona repetitor tutmalıdır? Burada günahı kimdə axtarmalıyıq? Əlbəttə, müəllimlərdə. İndi yerindən duran, necə deyərlər, müəllim olur. Buna nə var? Kitabdakı mövzunu oxu, sonra da get, şagirdlərə danış, vəssalam.

Şagird də oxumayanda danla, «2» yaz ki, niyə oxumamısan? Belə müəllim olmağı hamı bacarar və bacarır da.

Biz şagirdə sözdə yox, işdə, əməldə subyekt kimi baxmalı, ona müstəqillik, azadlıq verməliyik və onu nağıl etdiyimiz mövzunu dinməz–söyləməz dinləməyə məcbur etməməliyik. Biz müəllim kimi onun təfəkkürünü inkişaf etdirməli, onu sərbəst düşüncə sahibi etməli, şagird-

də tənqidi təfəkkür formalaşdırmalıyıq. Buna görə də müəllim mövzunu sadəcə nağıl etməməli, şagirdə hazır bilik verməməlidir (əslində bu, bilik deyil, məlumatdır), o, şagirdləri tədqiqatçılığa öyrətməlidir. Bu o deməkdir ki, müəllim elə bir öyrətmə mühiti yaradır ki, onun fasilitatorluğu, bələdçiliyi ilə şagirdlər elmin kəsf etdiklərini özləri üçün yenidən kəşf edirlər. Bu zaman şagirdin şəxsi müstəqilliyi, düsüncə müstəqilliyi təmin edilmiş olur. O, tədris prosesinin əsl subyektinə çevrilir. Beləliklə, şagird təkcə keyfiyyətli biliyə yiyələnmir, həm də bir şəxsiyyət kimi formalaşır.

Biz şagirdlərin təfəkkürünü inkişaf etdirmək əvəzinə, onların hafizəsini, yaddaşını lazımsız informasiya ilə hədsiz dərəcədə yükləyirik. Bu, özünü xüsusilə tarix dərslərində daha qabarıq göstərir. Hətta bəzi müəllimlər yeni çıxmış tarixi ədəbiyyatı seminar məşğələsi keçirmək üçün şagirdlərə oxumağı tapşırır. Şagirdlər buna böyük vaxt və qüvvə sərf edirlər. Metod isə elə köhnə metoddur. Birdəfəllik bilmək lazımdır ki, yaddaş məktəbi şəxsiyyət formalaşdırmır, məktəbin vəzifəsi isə vətəninə ləyaqətlə xidmət etməyi, onu xaricdə təmsil etməyi, onun xoşbəxt gələcəyini görə və qura bilməyi bacaran vətəndaşlar tərbiyə etməkdir. Buna ənənəvi təlim metodu ilə nail olmaq mümkün deyil. Ənənəvi təlim metoduna görə şagird informasiyanı dinləyən, olduğu kimi qəbul edən və onu müəllimə qaytaran obyektdir. Yeni təlim metodları isə şagirdi tədris prosesinin obyektindən subyektinə çevirir. İnteraktiv təlim metodu məhz günün tələbidir. Lakin bu gün ümumtəhsil məktəblərində yeni təlim metodları çox ləng yayılır və bu metodlar mahiyyətcə yox, təzahür formalarına görə yeni təlim metoduna oxşadılır. Guya sinfi qruplara bölmək və bir şagirdə veriləcək sualı və ya yaddaşa əsaslanan testi qrupa vermək yeni təlim metodudur. Çox təəssüf ki, belə iş təcrübəsindən bəhs edən yazılara pedaqoji mətbuatda, o cümlədən «Azərbaycan müəllimi» qəzetində də yer verilir.

Yeni təlim metodlarının çox ləng yayılmasının və düzgün tətbiq olunmamasının iki başlıca səbəbləri bunlardır: a) ənənəvi təlim metodu ilə dərs demək çox asandır (elə buna görə də indi yerindən duran, necə deyərlər, müəllim olur); b) özlərini yeni təlim metodunun biliciləri hesab edənlər, hətta milli məsləhətçi kimi çox məsul bir vəzifə daşıyanlar içərisində, metodistlər arasında müəllimliyə sonradan gələnlərin (dərs stavkası 18 saatdan 12 saata endiriləndə, müəllimlərin maaşı nisbətən yaxşı olanda və vaxtlı-vaxtında veriləndə, orta məktəbə müəllim axını başlayanda illərlə MEA-da kiçik elmi işçi işləyənlərin, ali məktəblərdə laborant olanların) az olmamasıdır. Doğrudur, onların içərisində çox ləyaqətliləri, yeni təlim metodlarını bilənlər də var. Amma metodikadan xəbərsizləri də çox idi və indi də az deyil . Beləri yeni təlim metodunu tamamilə yeni bir şey, göydəndüşmə bir şey kimi qəbul etdilər. Əslində, bu onlar üçün həqiqətən göydəndüşmə bir şey idi. Hər gün yeni mövzunu öyrənməyə saatlarla vaxt sərf etmək çətin idi. Lakin dərsi söz assosiasiyası, rollu oyun və s. üsullar adı altında mənasız oyuna çevirmək, uşaqların başını qatmaq asan idi. Dərs stavkası ona görə azaldılmışdı ki, tədrisin vəziyyəti və şagirdlərin bilik keyfiyyəti yüksəldilsin. Dərs yükü dərsi oyuna çevirmək üçün azadılmamışdı.

Yeni təlim metodlarının belə uzdəniraq biliciləri beynəlxalq məsləhətçilər tərəfindən təqdir olundu və təhsil nazirliyi tərəfindən dəstəkləndi. Belələrinin xarici məsləhətçilər tərəfindən dəstəklənməsi bir çox

cəhətlərə görə başa düşüləndir: satış bazarı və kredit qoymaq üçün meydan lazım idi (buradakı fəaliyyətlərinə görə kreditin müəyyən hissəsini onlar özləri maaş kimi alırdılar və alırlar) ; özlərinin üstünluyünü göstərmək və Qərb, Avropa mərkəzçiliyi ideyasını yeritmək üçün yeni təlim metodlarının primitiv, necə deyərlər, astar tərəfdən başa düşülməsi də onlar üçün sərfəlidir). Amma rəhbər təhsil məmurları tərəfindən yeni təlim metodlarının naşı təbliğatçılarının, «sapı özümüzdən olan baltalarının» dəstəklənməsi, onlara geniş meydan verilməsi bir qədər müəmmalı görünürdü. Məgər respublikamızda pedaqoq alimlər, metodist alimlər, peşəkar təhsil rəhbərləri ordusu kifayət qədər deyildi ki, yeni təlim metodları ilə əlaqədar müşavirələrə, məşğələlərə, məsləhətləşmələrə, müzakirələrə onları cəlb etməklə, yeni təlim texnologiyalarının məzmunu təhlil edildikdən, mahiyyəti açıldıqdan, üstünlükləri müəyyənləşdiridikdən sonra onları müəyyən qayda üzrə və elmi-nəzəri və pedaqoji-praktik əsaslarla, özü də qat-qat az xərclə müəllimlərə öyrətmək mümkün olmasın? Əlbəttə, belə qüvvə kifayət qədər vardır və tamamilə mümkün idi. Onda həm indiki pərakəndəlik, hətta xaotik vəziyyəti yaranmazdı, həm müəllimləri çaş-baş salan yazılar mətbuata yol tapmazdı, həm də yeni təlim metodlarını astar tərəfdən başa düşən naşı metodistlər səriştəsiz təhsil rəhbərləri tərəfindən dəstəklənərək meydan sulamazdılar.

Etiraf etməliyik ki, bu gün ölkəmizdə təhsilin səviyyəsi qənatbəxş deyil. Bunun bir səbəbi də yeni təlim metodlarını müəllimlərə öyrədənlərin çox böyük əksəriyyətinin bu metodların mahiyyətini dərk etməmələridir. Bu isə çox ziyalının belə bir fikrinin formalaşmasına şərait yaradır ki, guya interaktiv təlim metodu fənnin elmi-nəzəri, pedaqoji-psixoloji və s. metodiki məsələlərinə yiyələnməyi vacib hesab etmir, hətta bu məsələlərə bələd olmağı artıq hesab edir. Əksinə, bu metod həmin məsələlərə diqqəti daha da artırmağı tələb edir.

İnteraktiv təlimə keçid kampaniya xarakteri daşıyır. Axı, yeniliyin nə olduğunu bilmədən, onun mahiyyətini dərk etmədən, onu necə tətbiq etmək olar? Çox təəssüf ki, belə hallarla məktəblərimizdə, ixtisasartırma təhsili müəssisələrində çox-çox rastlaşmaq olur.

İnteraktiv təlim metodunun məktəblərimizdə ən çox yayılan üsullarından biri kiçik qruplarda iş üsuludur. Bir də görürsən bir müəllimin bu üsula aid açıq dərsi təşkil olunur və məktəblərdən, digər təhsil müəssisələrindən qonaqlar dəvət olunur. Belə dərsi müşahidə edəndə adam buradakı süniliyə, primitivliyə canını dişinə tutub dözür və dərsin qurtarmasına darıxır. Müəllim sinfi qruplara bölsə də, qruplarda iş getmir. Çünki, müəllimin qruplara verdiyi tapşırıq deyil, ənənəvi suallardan biridir və həmin sualın cavabını şagirdlərdən biri bilir və növbə çatanda o, həmin sualın cavabını deyir. Bütün qruplarda əvvəlcədən müəyyənləşdirilmiş həmin şagirdlərdən başqa, yerdə qalan bütün şagirdlər əllərini qulaqlarının dibinə qoyub arxayın şəkildə oturublar. Ənənəvi təlim metodu ilə dərs deyən yaxşı müəllimlər belə təcrübəni gördükdə «dur, qoçaq oğlum, baş-ayaq qandır, bu!..» deyib ondan üz döndərirlər. Çünki həmin müəllimin həm qruplara, həm də ayrı-ayrı şagirdlərə yazdığı yaxşı və əla qiymətlər haqlı olaraq onların narazılığına səbəb olur. Özlərinin haqlı olduqlarını belə əsaslandırılar: hər qrup mövzunun ancaq bir hissəsini - 20%-ni öyrənirsə, (müəllim sinfi 5 qrupa bölmüşdur, hər bir qrupa və cavab verən şagirdlərə də «2» düşür. Çünki bütün sinif uzrə 5

şagird mövzunun beşdə birini (əslində bündan da qat-qat azını) öyrənmişdir.

Belə yenilik kimə və nə üçün lazımdır? Bu təhsilə xəyanətdir.

Onlar günahın belə «yenilikçi» müəllimdə olduğunu bilmədiklərindən, daha doğrusu belə müəllimin olduğunu təsəvvür etmədiklərindən günahı metodda görürlər.

Belə halların baş verməsinin bir səbəbi də yəqin ki, bizim bilmədiyimiz şeyi müəyyənləşdirə bilməməyimizdir. Görünür, Konfutsi bu halı nəzərə alaraq «əsl bilik – təkcə bildiyin şeyi bilməkdir» deməklə kifayətlənməmiş, «bilmədiyin şeyi də bilməkdir» ifadəsini əlavə etmişdir.

Elmə marağın, elmi hazırlığın əsası orta məktəbdə qoyulur və şagirdi təqiqatçılığa öyrədən yeni təlim metodları bu cəhətdən əvəzsizdir. Amma onları yuxarıda göstərilən kimi təqdim etməklə biz tədqiqatçılıq qapılarını şagirdlərin üzünə bağlamış oluruq.

Yeni təlim texnologiyalarına belə əyləncə, oyun kimi baxılsaydı, onda yeni təlim metodlarından aşağıdakı taleyüklü suallara cavab vermək tələb olunmazdı.

A) Şagirdlər ən vacib nəyi bilməlidirlər?

B) Şagirdlər ən əsas nəyi etməyi bacarmalıdırlar?

C) Biz şagirdlərimizin necə insan olmasını istəyirik?

Bu suallara əsaslı cavab verməyən təlim metodları ilə məktəbliləri əsl vətəndaş kimi formalaşdırmaq olmaz. Odur ki, biz əvvəlcə özümüzü dəyişməliyik, inkişaf etməliyik. Özümüzə tənqidi təfəkkürün gözu ilə baxmağı bacarmalıyıq ki, nəql etdiyimiz və eləcə də şagirdlərdən tələb etdiyimiz dərsin nə dərəcədə doğru olduğuna inanaq. Bu, şagirdə, ümumiyyətlə, cəmiyyətə nə fayda verir?

Demək, bizim orta məktəb təhsil sistemi şagirdləri həyata yox, ali məktəbə hazırlamağa əsas diqqət verir. Bilik onlara ali məktəblərə qəbul imtahanları vermək üçün lazımdır. Elə buna görə də X-XI siniflərdə oxuyan və qəbul imtahanlarına hazırlaşan yeniyetmələr, bəlkə də hec vaxt bu qədər ağır və uzun iş günü görməyəcəklər: gündə azı 6 saat dərs, sonra azı iki repetitorun yanında məşğul olmaq, həm pis-yaxşı gündəlik dərslərə hazırlaşmaq, həm də repetitorların verdiyi tapşırıqları yerinə yetirmək!

Necə deyərlər, sözün həqiqi mənasında adamın başı şişər. Hafizəsi ağır yük altında əzilən yeniyetmə ona görə də ali məktəbə qəbul olunan kimi yaddaşını silkələməyə çalışır ki, bir az yüngülləşsin, onun tədricən bu yükdən azad olmasına səbri çatmır. Elə buna görə də F.Disterveq sonralar lazım olmayacaq biliklərin uşaqlara öyrədilməməsini məsləhət görürdü. Biz isə şagirddə düşüncə qabiliyyəti formalaşdırmaq, onun təfəkkürünü inkişaf etdirmək əvəzinə yaddaşını sonralar lazım olmayan informasiyalarla yükləyirik, onu həyata hazırlamırıq. Sabah o, həyata atıldıqda öz ağlından, düşüncəsindən istifadə etməyi bacarmır, çoxlarının məsləhətinə ehtiyacı olur. Belə yeniyetmələri, gəncləri olsa-olsa fiziki cəhətdən (sözsüz, bu qədər ağır zəhmət onların sağlamlığına da mənfi təsir göstərir) yetkin, kamil hesab etmək olar. Düşüncə, intellektual səviyyə etibarilə hələ onları tam yetkin hesab etmək olmaz.

Yeni təlim metodları kütləvi informasiya axını qarşısında şagirdlərin çaşıb qalmaması üçün onlara lazım olan ən vacib, ən zəruri informasiyanı seçməyi öyrədir. Bu elə informasiyadır ki, şagird onun vasitəsilə lazım olan hər hansı bir məsələyə qiymət verə bilsin, hər hansı bir hadi-

səni təhlil etməyi bacarsın. Bu, çox ciddi, olduqca vacib bir məsələdir. Məlum olduğu кimi hazırda dünyada informasiya müharbəsi gedir. İnformasiya isə neytral element deyil, döyüş silahıdır. Ondan silah кimi istifadə etməк üçün hər çür silahla silahlanmaq yox, lazım olan silahı seçməyi bacarmaq lazımdır.

Yeni təlim metodlarından istifadə, onların tətbiqi tövsiyəyə, nəsihətə əsaslanan tərbiyədən təfəккürə əsaslanan tərbiyəyə кeçid deməкdir. Məhz təfəккür tərbiyəsi, təfəккür mədəniyyəti tədris prosesinin başlıca səviyyə meyarı olmalıdır.

**QEYDLƏR:**


1. Ümumtəhsil məкtəblərinin V-XI sinifləri üçün tarix proqramları, Baкı: 2000.
2. V-VI siniflərdə Qədim dünya və Orta əslər tarixi tədrisinin metodiкası. F.P.Korovкinin və N.İ.Zaporojetsin redaкtəsi ilə. Baкı: 1977.
3. İnteqrativ кurriкulum: mahiyyəti və nümunələr. Baкı: 2005.
4. Müəllim hazırlığının və orta təhsilin perspeкtivləri, Baкı: 2005.
5. Xəlliov S. Təhsil, təlim, tərbiyə. Baкı: 2005.
6. Veysova Z. Fəal təlim metodlarına giriş кursu, Baкı: 2004.


## ДОЛЖНОСТИ СРЕДНЕГО ОБРАЗОВАНИЯ


**С.А.АГАЕВ**


**РЕЗЮМЕ**


В статье отмечается, что целью среднего образования является не только подготовка учащихся к поступлению в высшие учебные заведения. Главной задачей школы является подготовка их к дальнейшей самостоятельной жизни. Поэтому весьма важно воспитывать учащихся в духе высокой гражданственности.


## THE DUTY OF THE HIGH SCHOOL


**S.A.AGAYEV**


**SUMMARY**


The article indicates that the aim of secondary education is not only to maкe ready pupils for high schools (institutes). Secondary school generally prepares pupils for life. That is why bringing up must be more important function to shape, to form the real citizens.